**Bu gün Azərbaycan dünyanın ən nüfuzlu və sabit inkişaf etməkdə olan ölkələri arasında öz yerini kifayət qədər möhkəmləndirib. Bu da, təbii ki, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin formalaşdırdığı uğurlu daxili və xarici siyasət, eləcə də son 16 ildə Prezident İlham Əliyevin yürütdüyü milli maraqlara söykənən siyasi xəttin sayəsində mümkün olub.**



# Azərbaycanın beynəlxalq nüfuzu günbəgün artır

## *Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizə göstərilən hörmət, inam və etimadın təzahürüdür*

Azərbaycanın son illərdə qazandığı uğurlar artıq dünyanın nüfuzlu beynəlxalq təşkilatları, o cümlədən, ayrı-ayrı aparıcı dövlətlər tərəfindən də təsdiq edilir. Xüsusən də ölkəmizin Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsinə verdiyi töhfələr Avropa İttifaqı rəsmiləri tərəfindən dönə-dönə dilə gətirilmişdir. Bunlar, əlbəttə, təsadüfi sayıla bilməz. İstər Avropa ölkələri ilə ayrılıqda, istərsə də Avropanın böyük beynəlxalq təşkilatları ilə əməkdaşlıq sahəsində Prezident İlham Əliyev çox uğurlara imza atmışdır.

Dövlət başçısı İlham Əliyevin siyasi fəaliyyətinin ən böyük uğurlarından biri kimi, son illərdə Azərbaycanın müstəqil xarici siyasət yürütməsini qeyd etmək olar. Bu siyasət, əlbəttə, birinci növbədə milli maraqlara, ədalətli və səmərəli əməkdaşlığa əsaslanır və bizə çoxlu dost qazandırmışdır. 2011-ci ildə 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi bunu təsdiq edir. Təhlükəsizlik Şurasına üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, dünyada ədalətin təmin edilməsinə mühüm töhfələr vermiş və beynəlxalq siyasi proseslərin fəal iştirakçısına çevrilmişdir. Bu, Prezident İlham Əliyevin müstəqil və uğurlu xarici siyasətinin bəhrəsidir.

Eyni zamanda, son illərdə dövlət başçısı tərəfindən ciddi siyasi təşəbbüslər irəli sürülmüş və nəticədə dünyada sülh və tərəqqi işinə böyük töhfələr verilmişdir. Buna misal olaraq Prezident İlham Əliyevin birbaşa təşəbbüsü ilə Bakıda keçirilmiş beynəlxalq tədbirləri göstərmək olar. Bunlar, təbii ki, sadəcə tədbir naminə keçirilməyib. Dövlət başçımız bu tədbirlərin hər biri ilə dünyaya yeni sülh mesajları verib. Məsələn, 2008-ci ildə Bakıda Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin görüşü keçirilib. Amma bu, sadəcə, Avropa nazirlərinin görüşü olaraq qalmayıb, tədbirə məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirləri də dəvət edilib və hər iki qitə nazirlərinin birgə toplantısı keçirilib. Təsadüfi deyildir ki, belə bir tədbir tarixdə ilk dəfə baş tutub. Tədbirin bu qədər uğurlu alınmasının əsas səbəbi isə Azərbaycanın həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olmasıdır.

Bundan bir il sonra – 2009-cu ildə Bakıda yenə Prezident İlham Əliyevin təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısı keçirilib və bu dəfə tədbirə Avropa Şurası ölkələrinin mədəniyyət nazirləri də dəvət edilib. Bu təşəbbüsə "Bakı prosesi" adı verilib. Bu gün "Bakı prosesi" yaşayır və inkişaf edir. BMT-nin Baş katibi Antonio Quterreş "Bakı prosesi"ni 2008-ci ildən bəri mədəniyyətlər arasında dialoqun təbliğinin ön cəbhəsi kimi dəyərləndirmişdir. "Bakı prosesi"nin məntiqi davamı olaraq təsis edilmiş və iki ildən bir ölkəmizdə keçirilən mədəniyyətlərarası dialoq üzrə ümumdünya forumu artıq BMT Baş Assambleyasının qətnamələri ilə mədəniyyətlərarası dialoqun təşviq olunması üçün əsas qlobal platforma kimi tanınmışdır.

Bundan əlavə, Bakıda dəfələrlə sivilizasiyalararası dialoq forumları keçirilmişdir. Əlbəttə, Prezident İlham Əliyevin təşəbbüsü ilə. Bakıda Dünya Dini Liderlərinin Zirvə görüşü baş tutmuşdur. Prezident İlham Əliyevin təşəbbüsü və ciddi səyləri ilə Bakı Beynəlxalq Humanitar forumlarına uğurla evsahibliyi etməkdədir. Bütün bu tədbirlər zaman-zaman dünyada böyük rezonans doğurmuş, xarici media tərəfindən geniş işıqlandırılmışdır.

Zəngin tolerantlıq və multikulturalizm ənənələrinə malik Azərbaycan özünün uğurlu inkişafı ilə regional əməkdaşlığa da müsbət təsir göstərir. Ölkəmiz məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə bir çox nəhəng regional layihələrin, enerji, nəqliyyat layihələrinin təşəbbüskarı olmuşdur və istər iqtisadiyyatla, istər enerji ilə, istərsə də nəqliyyatla bağlı bütün bu təşəbbüslər uğurla nəticələnmişdir. Elə bir hal olmamışdır ki, Azərbaycanın təşəbbüsü uğursuzluqla nəticələnsin. Bu barədə Prezident İlham Əliyev demişdir: "Azərbaycan hazırda iqtisadi, siyasi cəhətdən müstəqil bir ölkədir, müstəqil xarici siyasəti var. Bu siyasət dünyanın əksər ölkələri tərəfindən dəstəklənir".

Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkəmizdə növbəti böyük tədbir keçirilir. Bakı Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə evsahibliyi edir. Təsadüfi deyil ki, Azərbaycan Prezidentinin dəvəti ilə Bakıya 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, eləcə də 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar. Bu da Azərbaycanın beynəlxalq nüfuzunun günbəgün artdığını göstərir.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev də bildirmişdir ki, Azərbaycan demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiqdir. Bunun dərin tarixi kökləri vardır. "Biz fəxr edirik ki, bir əsr bundan əvvəl Şərqdə müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir. Bu sahədə biz hətta əksər Qərb ölkələrini də qabaqlamışıq. Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir. Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur".

Dövlət başçısı demişdir ki, hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti sammitin Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərarı ölkəmizə göstərilən hörmət, inam və etimadın təzahürüdür. Dünya ölkələrinin əksəriyyətini öz sıralarında birləşdirən Qoşulmama Hərəkatı Azərbaycanın siyasətinə dəstək verir. "Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq. Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür. Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir", – deyə dövlət başçımız qeyd etmişdir.

Dövlət müstəqilliyimizin cəmi 28 yaşı olduğunu bildirən Prezident İlham Əliyev müstəqillik illərində ölkəmizin ağır təcavüzə məruz qaldığını da qonaqların diqqətinə çatdıraraq demişdir ki, Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon – ərazilərimizin təxminən 20 faizi iyirmi beş ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və nəticədə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistanın törətdiyi Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq yalnız azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirilmişdir. Mindən çox insan itkin düşmüşdür. Xocalı soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınmışdır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunsa da, bu sənədlər hələ də kağız üzərində qalır. Bunun kimi ikili standartlar siyasətinə son qoyulmalıdır. Prezident münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə Qoşulmama Hərəkatına üzv dövlətlərə təşəkkürünü bildirmişdir.

Prezident İlham Əliyev demişdir: "Azərbaycan mütəmadi olaraq BMT Təhlükəsizlik Şurasının mandatı əsasında təsis edilmiş beynəlxalq sülhməramlı əməliyyatlara da öz töhfəsini verir. Ölkəmiz Rusiya-NATO, Rusiya-ABŞ yüksək hərbi rəhbərliyinin mütəmadi olaraq keçirilən görüşlərinə evsahibliyi edir. Dünyada 200-ə qədər ölkə vardır. Bu ölkələr arasında qeyd etdiyim görüşlər üçün Azərbaycanın seçilməsi bizim yürütdüyümüz müstəqil xarici siyasətə olan hörmətin göstəricisidir".

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***